Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası




# ŞUŞA AZƏRBAYCANIN MƏDƏNİYYƏT PAYTAXTI

*Respublika Uşaq kitabxanaları*
*üçün tövsiyə biblioqrafiyası*

Bakı-2021

**Tərtibçi:** **Nazilə Tahirova,**
*Əməkdar mədəniyyət işçisi*
**Leyla Qafarova**

**Redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova,**
*Əməkdar mədəniyyət işçisi*

**Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı:** tövsiyə biblioqrafiyası /tərt. ed. N.Tahirova, L.Qafarova; red. və buraxılışa məsul Ş.Qəmbərova; F.Köçərli adına Respublika Uşaq Kitabxanası.- Bakı, 2021.- 49 s.

**©F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

## Tərtibçidən

Azərbaycanın Şanlı Qələbə qazanaraq öz ərazi bütövlüyünü tam təmin etməsi çoxəsrlik dövlətçilik tariximizin ən parlaq Zəfəridir. Möhtəşəm Qələbə Cənab Ali Baş Komandanın rəhbərliyi, Müzəffər Ordumuzun şücaəti ilə 44 gün müddətində əldə olundu, dünyada Azərbaycan məğrur, qalib ölkə kimi tanındı, 28 illik həsrətə son qoyuldu, erməni vandalizmindən dağılan, yandırılan şəhərlər, kəndlər, qəsəbələr yeni həyata başladı. Şuşanın Azərbaycan Mədəniyyətinin Paytaxtı elan edilməsi tarixi Qələbədən sonra Şuşa şəhərinə verilən böyük dəyərdir. Azərbaycan mədəniyyəti tarixində Şuşada muğamın, musiqinin, ədəbiyyatın, xalçaçılığın, dekorativ sənətin, rəssamlığın, teatr sənətinin inkişafının müstəsna əhəmiyyəti olmuşdur. Bir zamanlar "Azərbaycanın musiqi beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, bir sıra görkəmli xadimlərin Vətəni olan Şuşa – mədəniyyət, incəsənət tarixidir.

Bütün bunları nəzərə alaraq Firidun bəy Köçərli adına Respublika Uşaq kitabxanasının Ölkəşünaslıq və milli ədəbiyyatın təbliği şöbəsi **"Şuşa Azərbaycanın Mədəniyyət Paytaxtı"** adlı tövsiyə biblioqrafiyası hazırlamışdır.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulan göstərici tövsiyə olunan ədəbiyyat siyahısından ibarətdir. Girişdə mövzu haqqında ətraflı məlumat verilmişdir.

Tövsiyə göstəricisində kitablarda, məcmuə və dövri mətbuat səhifələrində dərc edilmiş materiallar öz əksini tapmışdır. Vəsaitdə ədəbiyyat xronoloji prinsip əsasında, daxildə isə əlifba sırasına uyğun olaraq qruplaşdırılmışdır.

**Ünvan:** Bakı şəh., S.Vurğun küç.88;
**E-mail:** info@clb.az.

## Prezident Şuşanı Azərbaycan mədəniyyətinin paytaxtı elan edib

"Mən Şuşa şəhərini Azərbaycan mədəniyyətinin paytaxtı elan edirəm. Şuşa şəhəri buna layiqdir. Hesab edirəm ki, nəinki Azərbaycanın, bölgənin mədəni paytaxtı sayıla bilər".

Şuşanın bərpası ilə əlaqədar işlərə artıq start verildiyini qeyd edən dövlətimizin başçısı deyib: "Yaşayış fondunun, tarixi abidələrin təftişi aparılmalı, vurulmuş ziyan dəqiq hesablanmalıdır və biz Şuşa şəhərinin restavrasiyasına başlamalıyıq. Ancaq yenə də vaxt itirmədən, ancaq, eyni zamanda, tələsmədən Şuşanın ilkin siması, tarixi siması bərpa edilməlidir".

Prezident qeyd edib ki, Şuşada yerləşən məscidlərimiz də əsaslı şəkildə təmir edilməli və onların öz siması qaytarılmalıdır.

## Əziz Şuşa, sən azadsan!

Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azad edilib.

Ümummilli lider Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində dedi: "Bu tarixi bir gündə Azərbaycan xalqına bu müjdəni vermək mənim həyatımda bəlkə də ən xoşbəxt günlərimdən biridir. Əziz Şuşa, sən azadsan! Əziz Şuşa,

biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!”

**İlham Əliyev,**

*Azərbaycan Respublikasının Prezidenti*

## Şuşa haqqında deyilən kəlamlar

“Şuşasız Qarabağ, Qarabağsız isə ümumiyyətlə Azərbaycan yoxdur.”

Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir.

**Heydər Əliyev,**
*Ümummilli lider*

Əziz Şuşa, sən azadsan!
Əziz Şuşa, biz qayıtmışıq!
Əziz Şuşa, biz səni dirçəldəcəyik!
Şuşa bizimdir!
Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*

“Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daş içərisində də salamat saxlar”. Şuşa -alınmaz qaladır.

**Molla Pənah Vaqif,**
*şair*

Pənah xan yaxın adamları ilə hərtərəfli məsləhətləşdikdən sonra Şuşa şəhərini bina etdirdi. Şəhərin bina olunacağı yerdə axar su və bulaq yox idi. İmtahan üçün bir neçə quyu qazdılar. O quyulardan su çıxdıqdan sonra Şuşa şəhərinin (1750-ci ildə) binası qoyuldu.

**Mirzə Adıgözəl bəy,**
*tarixçi*

Könlüm keçir Qarabağdan,
Gah bu dağdan, gah o dağdan.
Axşam üstü qoy Şuşadan
Havalansın xanın səsi,
Qarabağın şikəstəsi

**Səməd Vurğun,**
*xalq şairi*

“Oylağımız olan uca dağların, muğam pıçıldayan ayna bulaqların, “nal tökən” dağların dar keçidləri, yarış meydanları, cıdır düzləri, ulu Pənah xanın ayaq izləri bizi səsləyir”.

**Bəxtiyar Vahabzadə**
*xalq şairi*

“Harda dağ görürəm gözüm önündə Şuşanın dağları gəlib dayanır”.

**Şıxəli Qurbanov,**
*yazıçı*

“Əgər oxumursansa, deməli, şuşalı deyilsən”.

**Sergey Yesenin,**
*rus şairi*

# GİRİŞ

*Şuşanın dağları başı dumanlı,*
*Qırmızı qoftalı yaşıl tumanlı,*
*Dərdindən ölməyə çoxdu gümanım.*
**Xan Şuşinski**

**İşğal edilib:** 1992-ci il 8 may
**Azad olunub:** 2020-ci il 8 noyabr

Qarabağın döyünən qəlbi, Azərbaycan musiqisinin beşiyi Şuşa şəhərin banisi Pənahəli xan Sarıcalı-Cavanşir olub. Nadir şahın ölümündən sonra 1747- ci ildə özünü xan elan edən Pənahəli bəy Qarabağ xanlığını düşmən hücumundan qorumaq üçün qala inşa etmək qərarına gəlir. O, 1750-ci ildə Qarabağın ən gözəl guşəsində vaxtilə üç tərəfdən sıldırım qayalarla əhatə olunmuş çox qədim qalanın xarabalıqları üzərində yenisinin təməlini qoyur, müdafiə divarları, binalar və saray inşa etdirir.

Yerli sakinlər xanın şərəfinə yeni şəhəri Pənahabad adlandırırlar. Deyilənə görə, şəhər şiş qayaların əhatəsində yerləşdiyinə görə əvvəlcə onu "Şişə", sonra "Şuşa" adlandırıblar. Digər bir versiyaya görə, şəhərin adı "şüşə" sözündən əmələ gəlib. Şuşa bulaqlarının suyu elə duru və şəffaf olub ki, yerli sakinlər onu şüşə ilə müqayisə ediblər.

Pənahəli xanın ölümündən sonra taxta öz dövrünün böyük dövlət xadimlərindən biri sayılan İbrahimxəlil xan (1763-1806) çıxıb. Onun hakimiyyəti illərində Qarabağ xanlığı qüdrətinin çiçəklənmə dövrünü yaşayıb.

Pənahəli xan da, İbrahimxəlil xan da Şuşanı qədim və orta əsrlər memarlığının ən gözəl ənənələrinə uyğun inşa ediblər. Şəhər əvvəlcə 17 məhəlləyə bölünüb: Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər, Qu-

yuluq, Xocamircanlı, Mamayı, Saatlı, Köçərli, Mərdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə və Ağadədəli. Hər məhəllənin öz hamamı, məscidi və bulağı vardı. Şuşanın 300 tarixi abidəsi, o cümlədən respublika və dünya miqyaslı 23 abidəsi, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa edilmiş qala divarı olub. Bu abidələrin çoxu XVIII-XIX əsrlərə aid idi. Burada hər bir ev, hər bir küçə, əzəmətli qala divarları, məscidlər, uca minarələr keçmişimizin salnaməsi idi.

XIX əsrdə şəhərin qərb hissəsindəki dağlıq ərazidə daha 12 məhəllə salınıb və bununla da şəhərin siması tam formalaşıb.

Şəhərin cənub hissəsində yüksək üfüqi düzənlik yerləşir. Ona Cıdır düzü deyirlər. Rusiya hökmranlığının ilk dövrlərində Şuşa Qarabağın paytaxtı kimi öz əhəmiyyətini qoruyub saxlayırdı. Güclü Qarabağ xanlığı Rusiyanın ürəyincə deyildi. Çar məmurları onu zəiflətmək üçün məkrli plan qurdular. Onlar yurdu-yuvası olmayan səfil erməniləri Qarabağa, xüsusən, Şuşaya köçürməyə başladılar.

İkinci Rusiya-İran müharibəsi zamanı İrandan Azərbaycana, o cümlədən Qarabağa 18 min erməni ailəsi köçürüldü. Türkmənçay müqaviləsinə görə, cəmi iki il ərzində - 1828-1830-cu illərdə Cənubi Qafqaza İrandan 40 min, Türkiyədən 84 min erməni köçürülüb. Ermənilərə Gəncə və İrəvan quberniyalarının ən yaxşı torpaqlarından 200 min desyatindən çox pay ayrılıb.

1832-ci ildə Qarabağ əhalisinin 91 faizini azərbaycanlılar, 8,4 faizini ermənilər təşkil edirdi. Köçürülmə siyasəti nəticəsində azərbaycanlıların sayı azalaraq 64,4 faizə, ermənilərin sayı isə artaraq 34,8 faizə çatıb.

1900-1915-ci illərdə Şuşa iri iqtisadi mərkəzə çevrildi. Qafqazda ən böyük xalçaçılıq mərkəzi burada yerləşirdi. Şuşanın yalnız bir nəqliyyat yolu olub: şəhərin mərkəzindən keçən Ağdam-

Əsgəran-Xocalı-Xanbağı (Xankəndi)-Ağa körpüsü-Şuşa yolu. Şuşada üzlük daş yatağı, Keçəldağ gil yatağı, şirin su yataqları, Şirlan və Turşsu mineral suları var. Dörd yüz əlli hektar ərazini əhatə edən Daşaltı Dövlət Təbiət Yasaqlığı Şuşa və Əsgəran ərazisindəki unikal təbiət komplekslərini qorumaq üçün 1988-ci ildə yaradılıb.

Havasının təmizliyinə, saflığına və müalicəvi xüsusiyyətlərinə görə kurort şəhərciyi olan Şuşa gözəlliyi ilə təkcə Azərbaycanda deyil, onun hüdudlarından uzaqlarda məşhur olub. Şuşa dağlarında elə bir çiçək bitir ki, o çiçəyə daha heç bir yerdə təsadüf olunmur. Təbiətin məhz Şuşa torpağında yaratdığı bu möcüzə Xarıbülbül adlanır və formasına görə çiçəyin şirəsini çəkən arını görüb bağrı yarılan bülbülü xatırladır. Turşsu, Səkili, İsa, Şamil bulaqları, Cıdır düzü yerli əhalinin və qonaqların sevimli istirahət yerləri olub.



Kurort və müalicəvi sanatoriya zonası kimi məşhur olan Turşsu Şuşanın 40 kilometrliyində Laçın yolunda yerləşir. Soldan Daşaltı çayı axır. Turşsu müalicəvi və profilaktik vannaları ilə məşhurdur. Gəzinti və istirahət yerlərindən biri də Yuxarı Daşaltı idi. Xalq arasında bu istirahət yerinə Şəmilin bağı da deyirdilər. Bu yerin özünəməxsus xüsusiyyəti ondan ibarətdir ki, o, Daşaltı çayının üstündə, Ağzıyastı kahanın yerləşdiyi Üçmıx dağının düz altında, çeşmə ətrafında yerləşir. Ağzıyastı kaha isə Cıdır düzünün yaxınlığında səfalı bir yerdə, sıldırım qayalar arasında yerləşən mağaradır.

Şuşaya gələn turistlərin digər sevimli məkanı bənzərsiz və unikal təbiəti olan Cıdır düzü idi. Cıdır düzünün qərb hissəsində yan-yana düzülmüş və sanki torpağa sancılmış üç mıxı xatırladan 3 təpədən ibarət Üçmıx dağı yerləşir. Sanatoriya və istirahət evlərində dincələn turistlər həmişə bu yerlərə seyrə çıxar və təbiətin Şuşaya bəxş etdiyi bu gözəlliyə valeh olardılar. Hər ilin may ayında Cıdır düzündə Xarıbülbül festivalı keçirilərdi.

Şuşanı Azərbaycan musiqisinin məbədi və beşiyi, Qafqazın konservatoriyası da adlandırırdılar. Böyük Azərbaycan şairi Səməd Vurğun deyirdi ki, Azərbaycanın bütün məşhur müğənni və musiqiçiləri şuşalıdır. Azərbaycanın qədim və özünəməxsus muğam sənəti Şuşada xüsusi nəfəs kəsb edib. Təsadüfən demirlər ki, Şuşada körpələr bələkdə belə muğam üstündə ağlarlar. Şuşa zəngin mədəni həyatı ilə şöhrət qazanmış, ədəbiyyatının, musiqisinin və arxitekturasının çiçəklənmə dövrünü yaşamışdı. Burada çoxlu ədəbi-musiqi məclisləri fəaliyyət göstərirdi.

XVIII əsrin görkəmli Azərbaycan şairi və dövlət xadimi Molla Pənah Vaqif Şuşada yaşayıb və yaradıb. Onun poeziyası Azərbaycan ədəbiyyatının və musiqisinin inkişafına böyük təsir göstərib. Vaqifin şeirləri əsasında xalq mahnıları yaranıb. Xanəndələr Vaqifin qəzəlləri üstündə muğam oxuyublar. 1970-ci illərin sonunda onun məzarı üzərində əzəmətli məqbərə ucaldılıb.

Şair, rəssam və musiqişünas Mir Möhsün Nəvvab (1833-1918) Şuşada anadan olub, burada yaşayıb, burada yaradıb və burada dünyadan köçüb. O, Azərbaycan ədəbiyyatına, elminə və incəsənətinə sanballı töhfə verib, Gövhərağa məscidinin divar naxışlarının çəkilməsində onun zəhməti var. XIX əsrin ikinci yarısından başlayaraq Şuşada musiqi məclisləri təşkil edilməyə başlayıb. Onların arasında Natəvanın "Məclisi-üns" ("Dostluq

məclisi”) və Mir Möhsün Nəvvabın ”Məclisi-fəramuşan” (“Unudulmuşlar məclisi”) məclisləri daha məşhur olub.

“Məclisi-üns”ün yaradıcısı istedadlı şairə və rəssam Xurşud-banu Natəvan olub. Klassik Şərq musiqisinin xiridarı Xarrat Qulu Məhəmməd oğlunun (1823-1883) Şuşada yaratdığı məclis haqqında maraqlı məlumatlar qalıb. Şəhərdə Şuşa Dövlət Dram Teatrı, Azərbaycan Dövlət Qarabağ Tarixi Muzeyi, Şuşa Tarix Muzeyi, Üzeyir Hacıbəylinin, Bülbülün, Mir Möhsün Nəvvabın ev-muzeyləri, Azərbaycan Xalçası və Xalq-Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Rəssamlıq Qalereyası, orta və orta ixtisas musiqi məktəbləri, kitabxanalar fəaliyyət göstərirdi.

Şuşalıların çoxu bəy və xan nəslindən idi. Buna görə də çox təmkinli olublar. Şuşalıları hövsələdən çıxarmaq bir o qədər də asan məsələ deyildi. Amma bu təmkinin də öz həddi vardı. Bu həddi pozan hər kəs qarşısında qorxmaz, cəsur, ölümün gözünə dik baxan cəngavər görürdü.

Şuşada söyüş və nalayiq ifadələr eşitmək olmazdı. Şuşa bəlkə də dünyada yeganə yer idi ki, burada hətta ən nadinc uşaqlar futbol oynayanda söyüş söymürdülər. Şuşa çox firavan və təhlükəsiz şəhər idi. Respublika və dünya əhəmiyyətli mədəniyyət və tarixi abidələrinin zənginliyinə görə hələ sovet dövründə ona qoruq şəhər statusu verilmişdi.



XX əsrdə Şuşa üç dəfə ermənilərin məkrlik planlarının qurbanı oldu. 1905-1907-ci illərdə şəhər işğal edilərək yandırıldı, 1920-ci ildə onun böyük hissəsi dağıdıldı. 1992-ci ilin mayında isə tamamilə işğal edildi.

289 kvadratkilometr ərazidə yerləşən Şuşanın işğalı zamanı 480 dinc sakin öldürüldü, 600 adam yaralandı, o cümlədən 150 nəfər əlil oldu, habelə 552 uşaq yetim qaldı, 68 mülki şəxs girov götürüldü və ya itkin düşdü, 25 mindən çox adam məcburi köçkünə çevrildi. Şəhərin yüzlərlə tarixi abidəsi təhqirlərə məruz qaldı. Mədəni-maarif ocaqları, muzeylər, kitabxanalar, məktəblər, tibb ocaqları, tarixi abidələr – bütün bunlar erməni vandalları tərəfindən yerlə-yeksan edilib.

İşğaldan əvvəl rayonda dövlət tərəfindən qorunan 248 tarixi abidə mövcud olub. Şuşadan Azərbaycan izlərinin itirilməsi məqsədilə 600-ə qədər milli memarlıq abidəsi və tarixi ərazilər Pənahəli xanın sarayını, Yuxarı Gövhərağa məscidini, Aşağı Gövhərağa məscidini, Şərqin məşhur şairi xan qızı Xurşudbanu

Natəvanın evini, Qarabağ xanlığında vəzir olmuş klassik Azərbaycan şairi Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qarabağ dövlət tarix muzeyi, turist bazasını, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini, dağıtmış, buradakı nadir sənət incilərini talamış, şəhərin qədim müsəlman qəbiristanlığını məhv etmişlər.

Şuşa muzeylərinin qiymətli eksponatları, o cümlədən rəsm və heykəltəraşlıq əsərləri, qədim xalçalar, mühüm sənədlər və başqa dəyərli materiallar Ermənistana aparılıb. İndi bu əşyalar erməni mədəniyyəti nümunələri kimi xarici ölkələrdə hərraclarda satılır, muzeylərdə və müxtəlif sərgilərdə nümayiş etdirilir.

Şuşa torpağının yetişdirdiyi məşhur insanlar ona böyük şöhrət qazandırıblar. Azərbaycana və dünyaya görkəmli şəxsiyyətlər bəxş etmiş bir diyar heç vaxt başqa xalqa məxsus olmayacaq.

Artıq 28 il idi ki, dağlarının başı qara buludlu, meşələri dumanlı olan Şuşada qürbətdə qalan, səsi kəsilən sarı bülbül kimi sirdaşı xarı bülbülün də boynu bükük idi. Şuşa şuşalılarsız qalmışdı. Cıdır düzü namərdlərin tapdağı altında idi. Erməni vandalizminin qurbanı olan, düşmən gülləsindən "yaralanan" Bülbülün, Üzeyirin, Natəvanın heykəlləri doğma vətəninə qayıdacağı günü gözləyirdi.

O gün gəldi. Bütün ərazilərimiz kimi Şuşa da düşmən əsarətindən qurtuldu. Yenə qonaqlı- qaralı Cıdır düzü igidlərin məskəninə çevriləcək. Doğmalarının nəfəsinə həsrət qalan xarı

bülbül əsrarəngiz gözəlliyi ilə hamını valeh edəcək. Bu, əlli milyonluq bütün dünya azərbaycanlılarının arzusudur.

28 ildir ki, Azərbaycan Şuşasının həsrətiylə yaşayır, böyük səbir və dözümlə işğal altında olan doğma torpaqlarının qansız, müharibəsiz, beynəlxalq hüquq normalarına uyğun şəkildə geri qaytarılmasını gözləyirdisə də, məsələ kağızlar üstündə qalmağa, Azərbaycanın digər əraziləri, dinc azərbaycanlılar düşmən təxribatlarına tuş gəlməyə davam edirdi. Və nəhayət ölkə rəhbəri – Azərbaycanın Ali Baş Komandanı İlham Heydər oğlu Əliyev həddini aşıb azğınlaşmış ermənilərin yerinə oturdulması məqsədilə məsələnin hərbi qaydada həllini yeganə çıxış yolu olaraq ortaya qoydu.

2020-ci ilin sentyabr ayının 27-dən başlayaraq müzəffər Azərbaycan ordusu ölkənin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında işğalçı ermənilərin xarabalıqlara çevirdiyi torpaqlarımızı kənd-kənd, qəsəbə-qəsəbə, şəhər-şəhər qəsbkarlardan azad etməyə, bayrağımızı ucaltmaqla başladı... 8 noyabr tarixi Azərbaycanı uzun illərlə həsrətində olduğu doğma Şuşasına qovuşdurdu...

## Mədəniyyəti və görkəmli şəxsiyyətləri



XVIII əsrin II yarısından Şuşa musiqi mərkəzinə çevrilmiş və Azərbaycan musiqisinin yüksəlişinə səbəb olmuşdur. Öz məlahətli səsləri və böyük sənətləri ilə bütün Yaxın Şərqdə məşhur olan xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Əbdülbaği Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov və bir çox başqaları Şuşanın yetirdiyi məşhur sənətkarlardır.

Nəhayət, Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli (1885-1948) Şuşanın dünya şöhrətli yetirmələrindəndir. O, Azərbaycan opera musiqisinin banisi kimi tanınmaqla yanaşı, tarixdə istedadlı jurnalist, görkəmli dramaturq, pedaqoq, musiqişünas kimi də ad qazanıb.

Şuşada xanəndəlik sənəti ilə əlaqədar olaraq gözəl tar, kamança və qarmon çalanlar da yetişmişdi. Bu musiqiçilərdən böyük tarzən Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və başqaları ən məşhur sənətkarlardır.

Şuşa eyni zamanda Azərbaycanın bir çox görkəmli bəstəkarlarının vətənidir. Fikrət Əmirov, Zülfüqar bəy Hacıbəyov, Niyazi, Əfrasiyab Bədəlbəyli, Soltan Hacıbəyov, Əşrəf Abbasov, Zakir Bağırov, Süleyman Ələsgərov və bir çox başqaları gənclik illərini Şuşada – "Qız qayası"nda, "Üç mıx"da, "Cıdır düzü"ndə, "Çanaqqala"da keçirmişlər.

Azərbaycan musiqi sənətinin tədqiqatçısı, görkəmli musiqişünas Firudin Şuşinski də Şuşada doğulub. Şuşanın yetişdirdiyi nadir istedadlardan biri də görkəmli incəsənət xadimi Mehdi Məmmədovdur (1918-1985). O, milli dramaturgiya, incəsənət nəzəriyyəsi və estetikaya aid bir sıra əsərlərin müəllifidir.

Azərbaycan teatr sənətinin parlaq ulduzlarından olan Barat Həbib qızı Şəkinskaya da 1914-cü ildə Şuşada anadan olub. Barat xanım İbrahim xanın nəslindəndir.

Şuşa görkəmli memarların, xəttatların, nəqqaşların, istedadlı rəssamların Vətəni kimi də məşhurdur. Müasir şuşalı rəssamlardan Cəlal Qaryağdını, Əmir Hacıyevi, Nadir Əbdürrəhmanovu və Toğrul Nərimanbəyovu göstərmək olar. Azərbaycan milli xalça sənətinin inkişafında, dünyaya tanıdılmasında şuşalı sənətkar Lətif Kərimovun müstəsna xidmətləri olub...

Şuşanın mədəniyyət paytaxtı olmasından danışırıqsa, Qarabağ muğam məktəbini də xüsusi vurğulamalıyıq.

Bilirsiniz ki, Azərbaycanda bir neçə tanınmış muğam ifaçılıq məktəbi var. Muğam bütün ölkədə yayılsa da, onun əsas ocaqları özlərinin müstəqil məktəblərini yaratmış muğam yaradıcılığı mərkəzləri kimi Bakı, Şamaxı, Gəncə, Naxçıvan və Şuşa sayılır. Xüsusi maraq doğuran Qarabağ muğam məktəbi əsasən Şuşada formalaşmışdır.



Qarabağ muğam məktəbinin nümayəndələri Azərbaycan xalqının musiqi mədəniyyətini inkişaf etdirməklə, öz həmvətənlərinin ağıllarına, hiss və duyğular aləminə nəcib təsir göstərmişlər. Bu yerlərin təbiətindən keçib gələn, ruhu oxşayan həmin gözəllikdir ki, nadir musiqi mədəniyyətində öz əksini tapmışdır. Qarabağ muğam məktəbinin rəmzinə çevrilən məşhur “Qarabağ şikəstəsi” buna bariz nümunədir.

Mədəniyyət beşiyi olan bu şəhərin abu-havası məşhur yazıçı Aleksandr Dümanın “Qafqaz səfəri” əsərində də öz əksini tapmışdır. Kitabda bu yerlərin gözəlliyindən, Azərbaycan xalqının qonaqpərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairəsi Natəvandan və s. bəhs edilir.

Şuşanı haqlı olaraq həmişə Şərqin musiqi konservatoriyası adlandırıblar. Məşhur müğənniləri dinləmək və ya ifaçılıq dərsi almaq üçün hər yerdən bura musiqi həvəskarları axışıb gəlirdilər. Lakin bu şəhər təkcə musiqiçiləri ilə şöhrət qazanmamışdır. Əsrarəngiz təbiət amili, saf, dupduru bulaqlar bu yerlərin şöhrətini daha da artırırdı. Bu diyarın ən məşhur bulağı olan İsa bulağını isə çoxları Şuşanın rəmzi hesab edirlər.

Tarixə nəzər salsaq, görərik ki, Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Azərbaycan xalqının tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə ikinci minilliyin II yarısı – birinci minilliyin əvvəlləri) əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası (Üçmıx dağında) bu ərazinin Azərbaycanda ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir.

İngilis səyyah və alimləri C.Morye və R.Burter Şuşanın qədimliyi ilə bağlı dəyərli mülahizələr söyləmişlər. C.Moryenin fikrincə, Şuşa hələ eradan əvvəl insan məskəni olmuşdur. R.Burter isə yazır ki, "Şuşada Qafqazın başqa yerlərində olmayan Avropa şəhərlərindəki kimi daş binalar, daş döşəməli geniş küçələr, qədim Roma hamamlarını xatırladan gözəl hamam qalıqları vardır". Bütün bunlar Şuşanın hələ çox qədimdən mövcud olması haqqında fikir söyləməyə əsas verir.

XVIII əsrin əvvəllərindən başlayaraq Şuşa Qarabağ xanlığının, eləcə də Azərbaycanın ən mühüm mədəniyyət mərkəzlərindən birinə çevrilir, qonşu ölkələrdə isə özünə "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi", "Şərqin musiqi konservatoriyası" kimi adlar qazandırır. Və o dövrlərin nə tarixi sənədlərində, nə ədəbiyyatında "erməni" sözünə rast gəlinmir.

XX əsrin əvvəllərinədək Azərbaycanda, o cümlədən Şuşada musiqi sənəti, ilk növbədə xanəndə və sazəndələr ustad-şəyird zəminində inkişaf edirdisə, artıq XX əsrdən başlayaraq peşəkar musiqi təhsili daha geniş sahələri əhatə edərək, sistemləşdirilməyə və kütləviləşməyə doğru istiqamət götürmüşdü. O

dövrdə Azərbaycanda bəstəkar Üzeyir Hacıbəyovun böyük əməyi sayəsində peşəkar musiqi təhsilinin bünövrəsi qoyulur.

Azərbaycanın dilbər güşələrindən olan Şuşa haqqında çox yazılıb, Xan Şuşinskinin səsini qoynunda saxlayan başı qarlı, vüqarlı dağlarının əzəmətindən söz açılıb. Şərq ölkələrinin mədəniyyət mərkəzlərindən olan, milli memarlıq üslubu ilə seçilən, orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsi adlandırılan mədəniyyətimizə, ədəbiyyatımıza, incəsənətimizə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə seçilən, muğamımızın beşiyi sayılan, Azərbaycan tarixinə Qasım bəy Zakir, Xurşudbanu Natəvan, Həmidə xanım Cavanşir, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu kimi şəxsiyyətlər yetirən Qarabağın dilbər guşəsi olan Şuşa şərqlilərə məxsus arxitekturası ilə də fərqlənir. Azərbaycanın alınmaz qalası, mədəniyyət məbədi olan bu qədim şəhər özü boyda tarixi abidədir.

Şuşa teatrının tarixi XIX əsrin axırlarından başlayıb. Şəhərdə Sovet dövründə tar, kamança, ud, nağara və digər musiqi alətləri istehsal edən yeganə Şərq Milli musiqi alətləri fabriki fəaliiyət göstərib.

“Qarabağnamə” müəlliflərinin göstərdiyi kimi tarixin müxtəlif dönəmlərində xaqanlara təslim olmayan Şuşa qalası aylarla mühasirədə saxlanılsa da bu cənnətməkan diyarı fəth etmək heç kimə nəsib olmamışdır.

Çar Rusiyası dövründə də bütün Qarabağın inzibati, iqtisadi mərkəzi olmuş, inkişaf etmiş bu şəhərin mənəvi pasportu olan Daşaltı dərəsi, Cıdır düzü, memarlıq inciləri Şuşanı qədim mədəniyyət mərkəzlərindən biri kimi tanıtmışdır. Hər biri əvəzsiz sənət nümunəsi olan Xan, Qaxal mağaraları, Şuşa qalası Xurşudbanu Natəvanın, artilleriya generalı Mehmandarovun, şair -rəssam Mir

Möhsün Nəvvabın ev muzeyləri, İbrahim xanın və onun qızı Qara Böyükxanımın qəsrləri, "Gəncə darvazaları", Gövhər ağa məscidi, əsas ticarət mərkəzi olan "Rastabazar", möhtəşəm qala divarları, memarlıq üslubu ilə inşa olunan digər tikililər şəhərə gələn qonaqları valeh etmişdir. Şuşanın qaynar mədəni həyatı dahi bəstəkar, Azərbaycan peşəkar musiqisinin banisi Üzeyir bəy Hacıbəylinin yaradıcılığına mühüm təsir göstərmişdir. Dahi bəstəkar ilk yaradıcılıq addımlarını Şuşada atmışdır. Azərbaycan musiqisinin beşiyi olan Şuşa, eyni zamanda bütün "Qafqazın konservatoriyası" kimi şöhrət qazanmışdır. Bu şərəfli adı Şuşaya Xarrat Qulu, Əbdülbağı Zülalov, Hacı Hüsü, Məşədi Məmməd Fərzəliyev, Cabbar Qaryağdıoğlu, Seyid Şuşinski, Xan Şuşinski, Zülfü Adıgözəlov, Bülbül, Rəşid Behbudov kimi ölməz sənətkarlar, Sadıqcan (Mirzə Sadıq Əsəd oğlu), Məşədi Cəmil Əmirov, Qurban Pirimov kimi əvəzolunmaz tarzənlər, Zülfüqar Hacıbəyli, Fikrət Əmirov, Soltan Hacıbəyli, Niyazi, Əşrəf Abbasov, Süleyman Ələsgərov və başqa məşhur bəstəkarlar qazandırmışlar.

## Tarixi memarlıq abidələri



Şuşanın abidələr şəhəri olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

Şuşa şəhərinin memarlığını və memarlıq abidələrini tədqiq edən E.Avalov şəhərin memarlıq-planlaşdırma inkişafını üç mərhələyə bölür. Birinci mərhələdə Şuşa şəhərinin əsasının qoyulması dövründən başlayır (1753-1754). Həmin dövrdə Şuşa qalası, qala daxili qəsrlər və xan sarayları inşa edilmiş, şərq sektorunun aşağı hissəsinin inşasına başlanılmış və 9 Aşağı məhəllə formalaşdırılmışdır. İkinci mərhələ İbrahimxəlil xanın hakimiyyəti dövrünü (1759-1806) əhatə edir. Bu dövrdə şərq sektorunun yuxarı hissəsi inşa edilmiş və 8 Yuxarı məhəllə formalaşdırılmışdır. Üçüncü mərhələ Qarabağ xanlığının Rusiya imperiyasına birləşdirilməsindən sonra (1805) şəhərin intensiv genişləndirilməsi ilə əlamətdardır. Bu dövrdə şəhərin qərb və yuxarı hissələri inşa edilir və həmin ərazilərdə 12 məhəllə formalaşdırılır.

Şuşanın işğalından əvvəl şəhərin ərazisi qədim abidələrlə zəngin idi. Ümumiyyətlə, şəhərdə 549 qədim bina, ümumi uzun-

luğu 1203 metr daş döşənmiş küçələr, 17 məhəllə bulağı, 17 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr və qala divarları mövcud idi. O cümlədən, 72 mühüm sənət və tarixi abidələri, dövlət xadimlərinin və başqa tanınmış şəxslərin evləri olmuşdu. Bu abidələrin çoxu XIX əsrdə yaşamış memar Kərbəlayı Səfixan Qarabaği tərəfindən tikilmiş və həmin dövrün ən məşhur nəqqaşı Kərbəlayı Səfərəli tərəfindən bəzədilmişdir. 1977-ci ildə Şuşa tarixi-memarlıq qoruğuna çevrilmişdi. Şuşa tarixi-memarlıq qoruğuna daxil olan abidələrindən Xan qızı Natəvanın evi, Qarabağ xan sarayı, Vaqif türbəsi, Mirzə Salah bəy Zöhrabbəyovun yaşayış evi, Şuşa kurqanı, Şuşa mağara düşərgəsi, Şuşa qalası və digərlərini qeyd etmək olar.

**Şuşa qalası -** Azərbaycanın Şuşa şəhərini əhatə edən qala divarlarıdır. Qala şəhəri xarici müdaxilələrdən qorumuş, uzun müddət alınmazlıq simvolu olmuşdur. Ağa Məhəmməd şah Qacarın Cənubi Qafqaza yürüşü zamanı qala uzun müddət mühasirədə saxlanılsa da onu ələ keçirmək mümkün olmamışdır. Ərazi strateji baxımdan olduqca əlverişlidir.

Belə ki, Şuşa qalası yüksək dağlıq ərazidə yerləşir. Şuşa yaylasının dəniz səviyyəsindən ən hündür yeri 1600, ən alçaq yeri 1300 metrə yaxındır. Bu yüksək dağlıq yaylanın çevrəsi Daşaltı və Xəlfəli çaylarının yataqlarına enən dərin uçurumlarla əhatə edilib. Qarabağ xanı Pənahəli xan əvvəllər tikdirdiyi Bayat qalası və Şahbulaq qalasının əlverişsiz coğrafi mövqeyini nəzərə alaraq 1753-cü ildə Şuşa qalasının bərpa edilməsi haqqında qərar verir və Qarabağ xanlığının mərkəzi bura köçürülür. Qala bərpadan sonra uzun müddət mənbələrdə Pənahabad adlandırılıb.




Şuşa qalası Azərbaycan memarlığının ən gözəl incilərindən biridir. Qala Arran memarlıq məktəbi üslubunda inşa edilib. Qalanın tikilməsində əsasən yerli daşlardan və əhəng-yumurta sarısı qatışığından istifadə edilib. Qalanın dörd qapısı olub. Onlardan Gəncə qapısı öz yüksək memarlıq xüsusiyyətləri ilə seçilir. Qala dairəvi mühafizə bürclərinə malikdir. Qala yaxınlığında onu xarici aləmlə əlaqələndirən yüksək memarlıq keyfiyyətləri olan körpü də inşa edilib ki, bu körpü də Qala körpüsü kimi tanınır. Şuşanın xarici aləmlə əlaqəsini təmin edən qapılardan üçünün - Gəncə, Ağoğlan və İrəvan qapılarının adları bizim dövrümüzədək gəlib çatmışdır. Dördüncü qapının isə nə adını, nə də yerini indiyədək müəyyənləşdirmək mümkün olmamışdır. Ola bilsin ki, qala divarları İbrahimxəlil xan tərəfindən yenidən tikilərkən həmin qapı ləğv edilmişdi.

**Üzeyir Hacıbəylinin ev-muzeyi-** Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin Şuşadakı ev-muzeyi 1959-cu ildə yaradılmışdır. Ev-muzeyi 1992-ci il Şuşanın erməni qəsbkarları tərəfindən işğalına kimi fəaliyyət göstərmişdir. Muzeyin ekspozisiyasında Hacıbəyovlar ailəsinə məxsus ev əşyaları ilə yanaşı, Üzeyir

bəyin şəxsi əşyaları, şəkilləri, kitabları, ona həsr olunmuş və muzeyə bağışlanmış kitablar mühüm yer tuturdu. Ü.Hacıbəyovun anadan olmasının ildönümləri, yubileyləri muzeydə mütəmadi surətdə dövlət səviyyəsində qeyd olunmuşdur. 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi YUNESKO tərəfindən geniş qeyd olunmuş, dünyanın bir çox ölkəsindən gəlmiş qonaqlar Ü.Hacıbəylinin Şuşadakı ev-muzeyini ziyarət etmiş, burada böyük yubiley tədbirləri keçirilmişdir. 1992-ci ilin may ayının 8-də Şuşa şəhərinin erməni təcavüzkarları tərəfindən işğalından sonra muzey fəaliyyətini dayandırmışdır. Muzey rəhbərliyinin səyləri nəticəsində muzeyin eksponatlarının işğal olunmasına, düşmən əlinə keçməsinə yol verilməmişdir. Muzeyin eksponatları hazırda Ü. Hacıbəyovun Bakıdakı ev-muzeyinin fondlarında saxlanılır.



**Bülbülün ev-muzeyi-**SSRİ Xalq artisti Bülbülün 1992-ci ilə qədər Şuşada yerləşən ev-muzeyi onun Bakı şəhərindəki memorial muzeyinin filialı idi. Ev-muzey kiçik həyət, iki otaq və eyvandan ibarətdir. Bülbülün yaradıcılıq, elmi-tədqiqat, pedaqoji, ictimai fəaliyyəti haqqında nadir, çox qiymətli sənədlər burada

